***Ah, yazıq test!..***

***Akif MƏMMƏDOV***

...Test üsulunun keçənilki tətbiqi barədə çox şey demək olar; tərifləmək də olar, xırda-para tənqid etmək də. Ancaq bir məsələ şübhəsizdir. Xalqın tale məsələsinə çevrilmiş bu mühüm kampaniyada illərlə kök salmış kütləvi rüşvətin qarşısı alındı. Bunu testə düşmən gözü ilə baxanlar da etiraf edirlər. Və mənə elə gəlir ki, keçmiş iqtidarın gördüyü yeganə tədbirdir ki, lap qərəzli müxalifətdə dayananlar da əsaslı tənqid üçün əl yeri tapa bilmədilər. Halbuki 70-ci illərdə H.Əliyev müxtəlif inzibati, bəzən qeyri-adi (məsələn, hüquq fakültəsinə vəzifəli adamların uşaqlarının sənəd verməsi qadağan edilmişdi) əl atsa da, rüşvətin qarşısını ala bilmədi, əksinə, məzənnə bir az da qalxdı.

Başqa bir məsələ.

Ali məktəb müəllimlərinin özləri də razılaşırlar ki, keçən il qəbul olunanların ümumi səviyyəsi əvvəlkilərdən yaxşıdır. Bu, başqa söhbətdir ki, tək-tük savadsızlar da ali məktəb auditoriyalarına yol tapa biliblər. O da testin tətbiqindəki texniki çətinliklərə və asanlıqla düzələ bilən xırda-para çatışmazlıqlarla bağlıdır. Amma heç kəs həmişəki kimi demir ki, filan savadlı uşaq kənarda qaldı. Çatışmazlıqları aradan qaldırmaq üçün test metodunun özünü təkmilləşdirmək gərəkdir. Ancaq onu ləğv etmək xalq təhsilinin gələcəyi üçün son dərəcə ağır nəticələrə gətirib çıxarar. Hələ vaxtilə, hakimiyyət nisbətən qüvvətli olanda, qarşısı alına bilməyən rüşvət indi – yurdundan-yuvasından didərgin salınanların, ölüm qabağında dayanan əsgərlərin... paylarının belə göz görəsi oğurlandığı bir vaxtda – özünün, necə deyərlər, kulminasiya nöqtəsinə çatacaq. Bunu gözləyənlər çoxdur; ali və texniki məktəblərdə, nazirliklərdə, Prezident Aparatında, Ali Sovetdə, Nazirlər Kabinetində oturan iqtidar sahiblərinin böyük bir hissəsi, günc-bucaqda hərlənənlər, daha nə bilim, kimlər, kimlər...

İstər-istəməz düşünürsən: ah, yazıq test! Sənin düşmənlərin nə çoxmuş, özü də necə yekə-yekə?! Və gülməlisi (əslində ağlamalısı) odur ki, sənin taleyini...

ali məktəblərin rektorlarına tapşırıblar. Bəli, lap bu yaxınlarda Nazirlər Kabinetində qəbulla əlaqədar komissiya yaradılıb və onun tərkibi də, əsasən, ali məktəb rektorlarından təşkil edilib.

Bəlkə də, bu komissiyada sağlam düşüncə üstün gələcək və iş test üsulunun daha da təkmilləşdirilməsi, rüşvətin qarşısına daha etibarlı sipər çəkilməsi üçün müəyyən işlərin görülməsi istiqamətində gedəcək. Təki belə olsun!

Ancaq başqa varinatların gözlənilməsi daha realdır. Hansıdır onlar? Ya test metodu bütövlükdə ləğv edilə bilər, ya da müxtəlif qondarma tədbirlər nəticəsində o, tətbiq edilsə də, əhəmiyyətsiz bir şeyə çevrilər və mafioz qrupların fəaliyyəti üçün geniş imkanlar açar. Allah bundan saxlasın!

***"Azadlıq" qəzeti, 13 iyul, 1993***